# Ramazan bayramınız mübarək!

•14 (1320) 9-17 aprel 2024-cü il

# İQTİSADIYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır


## “TÜRK DÜNYASI BİZİM BİR AİLƏMİZDİR VƏ BİZ BU İSTİQAMƏTDƏ ÇALIŞMALIYIQ”



Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul edərən deyib.

Dövlətimizin başçısı bu gün Azərbaycan-Türkiyə birliyinin daha da güclənməsinin önəmini qeyd edərək bildirib ki, hazırda dünyada, o cümlədən Cənubi Qafqazda proseslər çox təhlükəli istiqamətdə gedir və bununla bağlı Azərbaycan haqlı olaraq öz narahatlığını ifadə edir. Belə ki, Cənubi Qafqaz üçün cızılan plan gələcəkdə böyük fəlakətə gətirə bilər.

Azərbaycan Prezidenti bildirib ki, Qarabağı işğaldan azad etməyimiz, xüsusilə keçən ilin sentyabrında həyata keçirdiyimiz antiterror əməliyyatı bəzi qüvvələri narahat edib. “Mən hər zaman deyirdim və deyirəm ki, biz haqq yolundayıq, öz əzəli torpaqlarımızı bütün beynəlxalq qanunlar çərçivəsində hərbi yolla azad etmişik”, - deyə vurğulayan Prezident İlham Əliyev qeyd edib ki, o vaxtdan bu günədək bizə olan təzyiqlər durmadan davam edir. Avropa Parlamenti təhqirlə dolu çirkin qətnamələr qəbul edib. AŞPA nümayəndə heyətimizi səsvermə hüququndan məhrum edib. Bunlar çox mənfi fəsadlara gətirə biləcək addımlardır və bunun yeganə səbəbi Qarabağı işğaldan azad etməyimizdir.

Bu gün ABŞ, Avropa İttifaqı və Ermənistan arasında Brüsseldə keçiriləcək üçtərəfli görüşə toxunan dövlətimizin başçısı bildirib ki, bununla Cənubi Qafqaz üçün növbəti təhlükə mənbəyi yaradılır. Halbuki son günlər həm ABŞ-ın, həm də Avropa İttifaqının yüksəkvəzifəli şəxsləri onların təşəbbüsü ilə baş tutan telefon danışıqları əsnasında bizi inandırmağa çalışmışlar ki, bu görüş Azərbaycanın əleyhinə deyil. Prezident İlham Əliyev qeyd edibi ki, lakin biz bunun Azərbaycanın və Cənubi Qafqazda iş birliyinin əleyhinə olduğunu bilirik. Bu, ayırıcı xətlərin yaradılması və ölkəmizi təcrid etmək məqsədi güdür.

Geosiyasi vəziyyətin dəyişdiyini deyən Prezident İlham Əliyev belə bir şəraitdə Azərbaycan-Türkiyə birliyinin hər zaman olduğu kimi, bu gün də güclü olmasının vacibliyini qeyd etdi və bu birliyi pozmaq istəyənlərin arzularının puç olacağına əminliyini bildirib.

Azərbaycan Prezidentinin andiçmə mərasimindəki çıxışında Türk dünyasını bizim bir ailəmiz adlandırdığını qeyd edən Mövlud Çavuşoğlu diqqətə çatdırıb ki, dövlətimizin başçısının bu çıxışında Türk dünyasının birliyi ilə bağlı dediyi çox dəyərli fikirlər Türk dünyasında böyük məmnunluqla qəbul olunub. Prezident İlham Əliyev qeyd edib ki, həqiqətən də Türk dünyası bizim bir ailəmizdir və biz bu istiqamətdə çalışmalıyıq.

## İqlim maliyyəsi COP29-un əsas müzakirə mövzularından biri olacaq



*“BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi dünyanın ən aktual başəri problemlərinin müzakirə olunduğu platformanın Azərbaycanda təşkili ölkəmizin qlobal problemlərin həllində məsuliyyətli tərəfdaş mövqeyini təsdiqləyir və BMT ilə münasibətlərimizdə yeni səhifə açacaq”.* Bu sözləri iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov “2021-2025-ci illər üçün BMT-Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi”nin icrası üzrə Hökumət-BMT Birgə İstiqamətləndirici Komitənin illik iclasında deyib.

O bildirib ki, iqlim maliyyəsi COP29-un əsas müzakirə mövzularından biri olacaq.

“Xüsusilə inkişaf etməkdə olan ölkələr iqlim dəyişikliyinin yaratdığı fəsadlara qarşı daha həssasdırlar. Bu məqsədlə 2009-cu ildə Danimarkanın ev sahibliyi etdiyi COP15-də inkişaf etmiş ölkələr 2020-ci ilə qədər inkişaf etməkdə olan ölkələrdə iqlim dəyişmələri ilə bağlı problemlərin həllində ehtiyacları ödəmək üçün hər il 100 milyard dollar məbləğində vəsaiti səfərbər etməyi öhdələrinə götürmüşdülər. Qeyd edim ki, hal-hazırda qlobal olaraq təxminən 73 ictimai və ya qismən ictimai iqlim fondu mövcuddur. Hazırda onların fəaliyyəti effektiv şəkildə əlaqələndirilmir. Çərçivə Konvensiyasının çətiri altında olan vəsaitlər kifayət qədər kapitallaşdırılmayıb.

Bu fondların 2020-ci ildə müxtəlif layihə və proqramlara ümumilikdə 3-4 milyard dollar ödədiyi bildirilib”, - deyə nazir müavinin vurğulayıb.

## “Azərbaycana qlobal səviyyədə yüksək dəstək göstəririk”

“İqlim təmizliyi istiqamətində sərmayələrin və vəsaitlərin cəlb olunması bizim əsas hədəfimizə çevrilməlidir”.

Bu sözləri BMT-nin ölkə üzrə Rezident Əlaqələndiricisi Vladanka Andreeva “2021-2025-ci illər üçün BMT-Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi”nin icrası üzrə Hökumət-BMT Birgə İstiqamətləndirici Komitənin iclasında deyib. O vurğulayıb ki, cari il artıq ciddi planlarla doludur.

*“Biz istərdik ki, iqlimlə bağlı tədbirlərimiz daha ciddi olsun. 126 fərqli layihə vasitəsilə bu il fəaliyyətimizi daha irəli aparmağı planlaşdırırıq. Bildiyimiz kimi, Azərbaycan bu il COP29-a ev sahibliyi edir və 197 ölkə burada toplanacaq. Biz Azərbaycana iqlim dəyişikliyi ilə mübarizə sahəsində dəstək olmaq üçün buradayıq və bir çox sahədə dəstək olacağıq. Qlobal səviyyədə yüksək dəstək göstəririk. Həmçinin bununla bağlı qlobal işçi qrup da yaradılıb”,* - deyə Vladanka Andreeva diqqətə çatdırıb.

## Şuşa şəhərinin beynəlxalq əlaqələrini inkişaf etdirməyi nəzərdə tuturuq

“Şuşa şəhərinin beynəlxalq əlaqələrinin inkişafı istiqamətində həyata keçiriləcək layihələrin sayının artacağına ümid edirəm”.

Bu fikirləri Türkiyənin Kayseri şəhərində AZƏRTAC-ın müxbiri ilə söhbətində Azərbaycan Respublikası Prezidentinin Şuşa şəhərində xüsusi nümayəndəsi Aydın Kərimov ifadə edib.

A.Kərimov Kayseri şəhərində “Şuşa” Azərbaycan Evinin açılmasını yüksək qiymətləndirib, bununla bağlı təşəbbüs göstərən Talas rayonu bələdiyyəsinə və Azərbaycan Respublikası Diaspora İş üzrə Dövlət Komitəsinə təşəkkürünü bildirib.

Prezidentin xüsusi nümayəndəsi əmin olduğunu bildirib ki, “Şuşa” Azərbaycan Evi iki qardaş ölkənin daha da yaxınlaşmasına töhfə verəcək və Azərbaycan ilə Türkiyənin birliyinin yeni bir rəmzinə çevriləcək. O, bununla bağlı Ümummilli Lider Heydər Əliyevin sözlərini sitat gətirib: “Azərbaycan ilə Türkiyə arasında dostluq əbədidir və sarsılmazdır”.

A.Kərimovun sözlərinə görə, “Şuşa” Azərbaycan Evi Azərbaycan xalqının mədəni və tarixi irsinin təbliğinə, geniş ictimaiyyətin Qarabağ regionu və ölkəmizin mədəniyyət paytaxtı haqqında məlumatlandırılmasına yönəlmiş çoxsaylı tədbirlərin keçiriləcəyi məkana çevriləcək. Burada, həmçinin başqa türk xalqlarının da əlamətdar günləri qeyd ediləcək.

Prezidentin xüsusi nümayəndəsi vurğulayıb: *“Hazırda Şuşa ilə qardaşlaşmış şəhərlərin sayı doqquza çatıb. Əminəm ki, bu, son hədd deyil. Biz gələcəkdə də əlaqələrin genişlənəcəyinə ümid edirik və buna hazırıq”.*




# Ötən il Hesablama Palatasının auditlərinin əhatə dairəsi 18,2 milyard manat təşkil edib

***"2023-cü ildə Hesablama Palatasının auditlərinin əhatə dairəsi 18, 2 milyard manat təşkil edib".*** Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Hesablama Palatasının 2023-cü il üzrə fəaliyyəti haqqında hesabatla bağlı fikir bildirərkən deyib.



Komitə sədrinin sözlərinə görə ilk dəfə olaraq 1 audit üzrə səmərəlilik qeydə alınıb. Hesabatda müxtəlif istiqamətlər üzrə risklər də göstərilib.

# Büdcə gəlirlərində 500 mln. manat həcmində ikili uçot müəyyən edilib



2022-ci ilin dövlət büdcəsinin icrasına rəyin tərtib edilməsi zamanı dövlət büdcəsi gəlirlərində 500 mln. manat həcmində iki uçotun aparıldığı müəyyən edilib.

Bu barədə Hesablama Palatasından bildirilib.

Palata qeyd edib ki, 400 mln. manat xərc vahid büdcə təsnifatına (VBT) uyğun aparılmayıb. Bundan əlavə, 44,8 mln. manatın bölüşdürülməmiş xərclərin təyinatına uyğun istifadə edilməyən va ya adına uyğun olmayan istiqamətlərdə istifadəsi müəyyən edilib.

Həmçinin, akkreditivə yönəldilmiş və dövlət büdcəsindən kassa icrasına aid edilmiş vəsaitlərdə 170 mln. manat həcmində uyğunsuzluq aşkar edilib.

## Aktiv təsərrüfat obyektlərinin sayı 205 minə çatıb

2024-cü il aprelin 1-nə aktiv vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 0,8 faiz artaraq 768,1 minə çatıb.



İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin yaydığı məlumata görə, hesabat dövründə aktiv ƏDV ödəyicilərinin sayı 3,9 faiz artıb və 47,5 min təşkil edib. Aktiv təsərrüfat subyektlərinin (obyektlərinin) sayı 205,0 min olub.

# «Ötən il əməliyyat büdcəsi planı 83,3 faiz icra edilib»

Bunu Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin aprelin 8-də keçirilən iclasının gündəliyində müzakirəyə çıxarılan Hesablama Palatasının 2023-cü il üzrə fəaliyyəti haqqında hesabatın təqdimatı zamanı deyib.



V.Gülməmmədov bildirib ki, iki sayda konsolidə edilmiş qurumun auditi aparılıb. Səmərəlilik auditi portfeli üzrə bütün tədbirlər yenidir. Bu audit üzrə tədbirlər ən azı 15 qurumu əhatə edir.

Hesablama Palatasının sədri vurğulayıb ki, ən effektiv audit yoxlamaları hüquq-mühafizə orqanlarında aparılanlardır.

# Bu il Azərbaycanda qaz hasilatı artıb

Yanvar-mart ayları ərzində respublikada 12,6 milyard kubmetr təbii qaz hasil edilib. Qazın 3,3 milyard kubmetri "Azəri-Çıraq-Günəşli", 6,9 milyard kubmetri "Şahdəniz", 0,4 milyard kubmetri "Abşeron", 2 milyard kubmetri SOCAR üzrə hasil olunub.



Energetika Nazirliyinin cari ilin 1-ci rübü üzrə operativ məlumatlarında bildirilir ki, bu il ötən ilin müvafiq dövrünə nisbətən 0,4 milyard kubmetr artımla qaz hasil edilib.

3 ay ərzində xaricə qaz satışı 6,4 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə təqribən eynidir. Avropaya 3,2 milyard kubmetr, Türkiyəyə 2,3 milyard kubmetr, Gürcüstana isə 0,9 milyard kubmetr qaz satılıb. Türkiyəyə TANAP-la bu müddətdə 1,3 milyard kubmetr qaz nəql olunub.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən aprelin 1-i 2024-cü il tarixinədək "Azəri-Çıraq-Günəşli"dən 219,6 milyard kubmetr, "Şahdəniz"dən isə 216 milyard kubmetr qaz hasil edilib. Bu dövrdə "Şahdəniz" yatağından hasil edilən qazın 153,4 milyard kubmetri ixraca nəql edilib. Hesabat dövründə 6 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub. Bunun 5,2 milyon tonu konsorsiumun, 0,8 milyon tonu isə SOCAR-ın payına düşüb.

Neft emalı 2024-cü ilin yanvar-mart aylarında 1,6 milyon tona yaxın təşkil edib.

# Sosial audit sahəsində qabaqcıl xarici təcrübə



**Qoşqar Əhmədov,**
**Azərbaycan Respublikasının Auditorlar Palatasının Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi**

**(əvvəli qəzetimizin 29 mart -3 aprel 2024-cü il, 12-ci sayında).**

**Sosial auditin Rusiya təcrübəsi**

Rusiya sosial audit modelinin xüsusiyyətləri tarixi ənənələr, milli mentalitet, səciyyəvi sosial-iqtisadi münasibətlər kimi bir çox amillərlə müəyyən edilir.

Rusiya modelinin prinsipial mühüm xüsusiyyəti ondan ibarətdir ki, sosial audit sosial tərəfdaşlıq sisteminin aləti hesab olunur. Rusiya sosial auditinin sosial tərəfdaşlıq sisteminə daxil edilməsi, sosial-iqtisadi münasibətləri araşdırmaq üçün müştərilərin dairəsini əhəmiyyətli dərəcədə genişləndirir.

Strateji oriyentasiya həm də sosial auditin Rusiya modeli üçün xarakterikdir (xaricdə ondan əsasən operativ və taktiki sosial idarəetmədə istifadə olunur). Rusiyada sosial auditin strateji xarakteri əsasən onun daha yüksək səviyyələrdə (federal, regional, sənaye və s.) istifadəsinin mümkünlüyü, habelə mənəvi (əxlaq) normalarının və işgüzar etikanın, biznes və cəmiyyət arasında münasibətlərin formalaşmasının nisbətən uzun dövrü əhatə etməsi ilə izah edilir. Rusiya təcrübəsini və inkişaf perspektivlərini nəzərdən keçirən zaman müxtəlif tərəflərin sosial auditə marağını aşağıdakı amillərlə izah etmək olar:

**Regionlar üçün:**

*– sosial münasibətləri kəskinləşdirən potensial təhlükə və riskləri, onların baş verməsinin əsas səbəblərini müəyyən etmək;*
*– sosial münasibətlər sahəsində qanunvericiliyin pozulmasını, sosial vəziyyətin hüquqi və etik normalara uyğunsuzluğunu müəyyən etmək;*
*– sosial risklərin minimuma endirilməsi yollarını müəyyən etmək, sosial-iqtisadi inkişafın insan amilini inkişaf etdirmək üçün əlaqələndirilmiş tədbirlərin görülməsi əsasında sosial konsensusa nail olmaq;*
*– ayrı-ayrı müəssisələrin fəaliyyətinin sosial aspektlərini müqayisə edərək qiymətləndirmək;*
*– müəssisələrin bəyan edilmiş məqsədləri ilə adı çəkilən sahədə təcrübə arasında uyğunsuzluqları müəyyən etmək;*
*– sosial məsuliyyətli davranışdan maliyyə və iqtisadi gəlir əldə etmək;*
*– investisiyalar və kadrlar üçün müəssisənin reputasiya kapitalını artırmaq;*
*– hökumət, biznes və həmkarlar ittifaqlarının fəal və məsuliyyətli sosial təcrübəsindən strateji effekti təhlil etmək.*

Biznes icması üçün həm sosial auditin bütün kompleksindən, həm də onun ayrı-ayrı elementlərindən olan məlumatlardan istifadə edilməsi: kadr auditi, kadrların idarə edilməsinin auditi, kadrların hazırlanması və yenidən hazırlanması, ümumi korporativ marağın formalaşdırılması, istehsal prosesi iştirakçılarının maraqlarının optimal balansının formalaşdırılması.

**Hakimiyyət üçün:**

*– rəsmi statistik göstəricilərdə, siyasi partiyaların sənədlərində, liderlərin bəyanatlarında göstərilən məlumatlardan əlavə, iqtisadiyyatın müxtəlif sahələrində (müəssisələrdə - regional və yerli səviyyələrdə) sosial münasibətlərə dair daha geniş və daha obyektiv məlumatlardan istifadə etməklə, sosial gərginliyin gizli formalarının aşkar edilməsi və vaxtında zəruri tədbirlərin görülməsi;*
*– tərəfdaşlıq mexanizmləri vasitəsilə sosial münasibətləri daha effektiv tənzimləmək;*
*– sosial audit meyarları əsasında sosial mövzularda müsabiqələrin daha obyektiv keçirilməsi;*
*– ətraf mühitin mühafizəsi də daxil olmaqla sosial layihələrin maliyyələşdirilməsində iştirak etmək üçün biznesi cəlb etmək məqsədəuyğundur;*
*– əməyin təşkilinin kölgə formalarına qarşı mübarizədə auditin nəticələrindən istifadə etmək.*

**Həmkarlar ittifaqları üçün:**

*– kollektiv müqavilələrin və onların icrasının müstəqil təhlilinin nəticələrindən istifadə edərək;*
*– işçini işəgötürənlə dialoqda daha effektiv müdafiə etməyə;*
*– korporativ etikanın ümumi qəbul edilmiş etik və hüquqi standartlara uyğunluğuna;*
*– işçilərin strateji məqsədlər və müəssisənin mövcud vəziyyəti haqqında və işçilərin və işəgötürənlərin bir-birinə qarşılıqlı tələblərinin əsaslı olub-olmaması barədə məlumat əldə etmələrinə şərait yaratmaq.*

Rusiyada ilk dəfə 2008-ci ildə Voloqda vilayətindəki Cherepovets Azot ASC-də sosial audit proseduru həyata keçirildi. Tədqiqatın məqsədi müəssisədə sosial münasibətlər sahəsində mövcud riskləri, onları minimuma endirmək yollarını öyrənmək, habelə işçilərin nəzərində şirkət rəhbərliyinin müsbət imicinin formalaşdırılması üçün işçilər tərəfindən hüquqi və etik normaların pozulması kimi qəbul edilən və sosial münasibətlərin formalaşmasına əhəmiyyətli maneələr yaradan fərdi hadisələri öyrənmək idi. Tədqiqatın məqsədləri aşağıdakılardan ibarət idi:

*– işçi qüvvəsinin idarəetməyə sadiqlik dərəcəsinin müəyyən edilməsi;*
*– zavodun inkişaf perspektivləri və müəssisədəki cari işlər barədə işçi qüvvəsinin məlumatlılıq səviyyəsinin müəyyən edilməsi;*
*– müəssisədə sosial-məişət şəraitinin keyfiyyətinin qiymətləndirilməsi;*
*– kadr dəyişikliyinə təsir edən amillərin müəyyən edilməsi.*

Uzunmüddətli perspektivdə sosial audit konsepsiyasının həyata keçirilməsi idarəetmə proseslərini optimallaşdırmağa, federal, regional və yerli səviyyələrdə inzibati qərarlar qəbul etməyə imkan verə bilər.

Beləliklə, Rusiyada ilk növbədə, biznes ictimaiyyətinin özünün və onu təmsil edən təşkilatların birbaşa marağı üçün sosial auditə obyektiv əsas var. Vətəndaş cəmiyyəti institutlarının sosial auditə cəlb edilməsi dövlətə nəzarətçi kimi yox, ilk növbədə sosial-iqtisadi münasibətlərin əlaqələndiricisi kimi çıxış etməyə və bununla da sosial sahədə münasibətlərin tənzimlənməsi sistemini daha çevik etməyə imkan verir.

Rusiyada sosial audit sosial-iqtisadi münasibətlərin tənzimlənməsində konsensusa nail olmağa yönəlmiş könüllü, müstəqil və obyektiv auditin etibarlı nəticələri əsasında maraqlı tərəflər arasında dialoqa imkan verən, sosial tərəfdaşlıq üçün effektiv vasitəyə çevrilmək imkanına malikdir.

Hər bir yenilik kimi, sosial auditə də münasibət birmənalı deyil. Bununla belə, heç bir şübhə yoxdur ki, olduqca mürəkkəb və qeyri-sabit dünyada bütün sosial-iqtisadi amillər, ən mühüm komponenti "sosial ölçü" olan davamlı inkişaf ideyasına əsaslanan yeni düşüncəyə ehtiyac olduğunu qəbul edir. Sosial audit, hətta onun daha da təkmilləşdirilməsini nəzərə alsaq, əlbəttə ki, müasir sosial və ekoloji problemləri həll etməyəcəkdir. Lakin o, haqlı olaraq, zaman keçdikcə qloballaşma şəraitində sosial-iqtisadi proseslərin tənzimlənməsinin effektiv mexanizminə çevrilə bilən bir növ sosial innovasiya kimi qiymətləndirilə bilər.

**Sosial auditin Fransa təcrübəsi**

Sosial audit, eləcə də sosial-ekoloji hesabatlar və onun yoxlanılması/sertifikasiyası məsələləri əsrin əvvəlində Fransa ictimaiyyətinin, biznesinin və hökumətinin diqqətini cəlb etməyə başladı. Fransa müəssisələrinin ciddi şəkildə əməl etməyə borclu olduqları sosial və ekoloji qanunlar qəbul edildi. Üstəlik, şirkətlərin fəaliyyətinin sosial komponenti həmişə (ən azı II Dünya Müharibəsindən sonrakı dövrdə) general de Qollun sözləri ilə desək, "əmək və kapital" əməkdaşlığı kursunu elan edən ölkənin diqqət mərkəzində olmuşdur.

1977-ci ildə Valeri Jiskar d'Estenqin prezidentliyi dövründə 300-dən çox işçisi olan müəssisələrin "sosial balans"ının tətbiqini ehtiva edən qanun qəbul edildi. O, bir sıra sosial göstəricilər üzrə ətraflı illik hesabatın təqdim olunmasını nəzərdə tuturdu.

Müasir mərhələdə sosial audit məsələlərinin Fransada tamamilə yeni məna kəsb etdiyini söyləmək üçün bütün əsaslar vardır. Bu məsələlər davamlı inkişaf konsepsiyası çərçivəsində biznesin sosial məsuliyyəti və sosial məsuliyyətli investisiyalar təcrübəsi ilə ayrılmaz şəkildə əlaqəlidir. Müasir Fransa müəssisələri əvvəlkindən daha çox öz fəaliyyətlərinin "ekstramaliyyə" göstəricilərini nəzərə almağa məcburdurlar ki, onların xüsusi çəkisi strateji dayanıqlığa nail olmaq, inkişaf perspektivlərini qorumaq və rəqabət qabiliyyətini saxlamaq üçün getdikcə daha çox əhəmiyyət kəsb edir. Səhmdarlar və investorlar, şirkətlər, onların ətraf mühitə qayğısı və bütün "maraqlı tərəflər"lə yaxşı münasibətləri daha çox şəffaflıq və əlavə məlumat tələb edir.

Sosial-iqtisadi sahədə "dövlətçilik ənənələri və dövlətin iqtisadiyyatın idarə edilməsinə fəal müdaxilə siyasəti" ilə tanınan Fransa Qərbi Avropada İqtisadi Tənzimləmədə Yeni İstiqamətlər haqqında Qanunu (Loi sur les nouvelles régulations économiques) 2001-ci ilin may ayında qəbul edərək, KSM təcrübəsini qanuniləşdirməyə çalışan ilk dövlətlərdən biri olmuşdur. Qanunun 116-cı maddəsi ölkənin fond bazarında siyahıya alınmış bütün Fransa şirkətlərindən öz fəaliyyətlərinin "ekstramaliyyə" tərəfini əks etdirən ətraflı hesabat təqdim etmələrini tələb edir.

Aydındır ki, sosial auditin məcburi edilməsi kimi son dərəcə mürəkkəb vəzifəni tək dövlətin səyi ilə həll etmək mümkün deyil, bütün maraqlı tərəflərin - biznesin, sosial tərəfdaşların, ekspertlərin, ictimaiyyət nümayəndələrinin, QHT-lərin konstruktiv dialoqu tələb olunur. Tədqiq olunan problemə bu cür yanaşma artıq öz nəticələrini verməkdədir. Belə ki, Fransada müəssisələrin təşəbbüsü və vəsaiti ilə ORSE və NOVETHIC adlı iki qeyri-hökumət mərkəzi yaradılmışdır ki, onların vəzifələrinə biznesin sosial məsuliyyəti və sosial auditlə bağlı monitorinq məsələləri daxildir. Sosial audit şirkətlərinin əsas müştəriləri müxtəlif növ investorlar, ilk növbədə institusional (pensiya fondları, sığorta şirkətləri), idarəetmə şirkətləri, banklar, pay fondlarıdır ki, onlar "etik məsələləri" nəzərə alaraq investisiya obyektlərini seçməyə can atırlar və ya oxşar intellektual məhsullar təklif edirlər. İnvestisiya qoyarkən sosial və ekoloji göstəricilərin nəzərə alınmasının vacibliyi haqqında danışılsa da, əslində Fransada sosial məsuliyyətli investisiyaların ümumi investisiyalarda payı 1%-dən çox olmamaqla son dərəcə kiçik olaraq qalır. (ABŞ-da müqayisə üçün bu rəqəm 10% təşkil edir). Bununla belə, mütləq ifadədə, təkcə 2005-ci ilin birinci rübündə onlar, ekspertlərin fikrincə, təxminən 6 milyard avro təşkil etmişdir.

Onu da qeyd etmək lazımdır ki, sosial audit indiyədək əsasən transmilli təşkilatlara və iri şirkətlərə təsir edir, Qərbi Avropada müəssisələrin ümumi sayının 95%-dən çoxunu təşkil edən kiçik və orta müəssisələr isə əksər hallarda "sosial auditorlar"ın diqqətindən kənarda qalır.

Öz növbəsində optimistlər qeyd edirlər ki, sosial sahədə könüllü biznes təşəbbüsləri müəssisələrin və idarəetmənin inkişafında yeni mərhələ kimi qiymətləndirilə bilər. Sosial audit təcrübəsi, onların fikrincə, biznesə ictimai nəzarətin gücləndirilməsindən xəbər verir. Bu təcrübənin kütləvi təşəbbüs kimi yarandığı və dövlət tərəfindən tətbiq edilmədiyi vurğulanır. Bu nöqteyi-nəzərin tərəfdarları hesab edirlər ki, korporativ sosial məsuliyyət və sosial audit dövlət, biznes və vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqənin yeni formalarını qurmağa imkan verir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq yadda saxlanılmalıdır ki, Azərbaycanda bu istiqamətlərdə artıq mühüm işlərə başlanılıb ki, bunlardan ən mühümü 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və 2024-cü ildə COP-29-un təşkil edilməsidir. Eyni zamanda bura aşağıdakıları da aid etmək olar:

***1) beynəlxalq və irihəcmli qurumlar tərəfindən qeyri-maliyyə və sosial monitorinqlərin aparılması və hesabatların dərc edilməsi;***
***2) auditor təşkilatları tərəfindən həmin hesabatların aparılması ilə bağlı sahibkarlara və regionlara dəstəyin göstərilməsi;***
***3) Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən sosial və qeyri-maliyyə auditinin aparılmasına dair metodik bazanın hazırlanması və müvafiq kadrların hazırlanmasına dəstək.***

Əks edilənlər əsasında demək olar ki, Azərbaycan Respublikasının rəhbərliyi tərəfindən görülən tədbirlər ön sıradadır və biznes mühitinin yaşıllaşdırılması sahəsində tədbirlərin həyata keçirilməsi davam etdirilir.

# Звучащие на Западе обвинения совершенно необоснованны



Звучащие на Западе обвинения в том, что Азербайджан намерен напасть на Армению, являются совершенно необоснованными.
Об этом заявил президент Азербайджана Ильхам Алиев в ходе телефонного разговора с госсекретарем США Энтони Блинкеном.
Президент Ильхам Алиев подчеркнул, что на проведенной 2 апреля в Париже пресс-конференции с Энтони Блинкеном министр иностранных дел Франции сказал неправду, обвинив Азербайджан в непризнании территориальной целостности Армении и в том, что он является источником опасности для Армении.
Глава государства подчеркнул, что Азербайджан привержен заявлению, принятому на встрече в Праге в 2022 году, и Алма-Атинскому заявлению.

# Эрдоган утвердил соглашение между Турцией, Азербайджаном и Грузией

Президент Турции Реджеп Тайип Эрдоган утвердил соглашение между Турцией, Азербайджаном и Грузией «О предварительном обмене данными для облегчения таможенных транзитных операций в рамках проекта железной дороги Баку - Тбилиси - Карс». Соответствующий документ за подписью главы государства опубликован в Resmi Gazete.
Соглашение между правительствами трех стран было подписано 18 августа 2022 года в Баку.
Договор направлен на упрощение таможенных процедур в отношении товаров, перевозимых транзитом по железной дороге Баку - Тбилиси - Карс, которая проходит по территории всех трех государств.

# Налоговые поступления превысили 4 млрд манатов

В январе-марте этого года по линии Государственной налоговой службы при Министерстве экономики в государственный бюджет поступило 4 млрд 281,5 млн манатов налогов.
Это на 12,6% меньше, чем за тот же период прошлого года. На поступления из ненефтегазового сектора в этом периоде пришлось 2 млрд 914,2 млн манатов, что на 11,3% больше, чем год назад.

# «Азеркосмос» намерен провести измерения параметров углекислого газа в атмосфере




Об этом сообщил председатель правления ОАО «Азеркосмос» Самеддин Асадов в ходе проходящего в Баку мероприятия на тему «Взгляд на изменение климата из космоса».
«Количество метана, выбрасываемого в атмосферу в Азербайджане, продолжает увеличиваться из года в год. В настоящее время мы не проводили точных измерений параметров углекислого газа в атмосфере. Однако мы намерены сделать это в ближайшие годы», - сказал он.
Отметим, что пятого апреля общественности была представлена новая электронная платформа, которая состоит из пяти разделов на двух языках. Публикуемая здесь информация на основе данных спутника Azersky будет способствовать повышению осведомленности об изменениях климата.
Напомним, что ОАО «Азеркосмос» стремится стать одной из движущих сил мировой космической отрасли, участвуя в широком спектре научно-исследовательских работ и крупных глобальных проектах, сотрудничая с международными заинтересованными сторонами и партнерами, а также внедряя местные ноу-хау.
Цель ОАО «Азеркосмос» - создание космической экосистемы в Азербайджане.

# Поддержка реализации концепции "Умное село" в числе приоритетов ООН

Одним из приоритетов ООН в отношении целей устойчивого развития в Азербайджане на 2024 год является поддержка реализации концепции "Умное село" в комплексном подходе развития общества. Об этом сообщила исполняющая обязанности резидента-представителя ПРООН в Азербайджане Алессандра Роккасальво в ходе заседания Совместного руководящего комитета правительства-ООН по реализации "Рамочного документа по сотрудничеству в области устойчивого развития между ООН-Азербайджан на 2021-2025 годы". "Одним из приоритетов ООН в отношении целей устойчивого развития в Азербайджане на 2024 год является поддержка реализации концепции "Умное село" в комплексном подходе развития общества. Кроме того, создание занятости молодежи, женщин, мигрантов, беженцев, вынужденных переселенцев в районах, пострадавших от войны, и усиление социальной, финансовой инклюзивности являются одними из основных вопросов", - сказала она.

# В Баку состоялись Дни культуры Беларуси в Азербайджане



1-4 апреля 2024 года состоялись Дни культуры Беларуси в Азербайджане. Чрезвычайный и Полномочный Посол Республики Беларусь в Азербайджанской Республике Андрей Равков принял участие в переговорах министров культуры двух стран Анатолия Маркевича и Адиля Каримли, открытии выставки «Беларусь глазами художников», а также в церемонии торжественного открытия Дней культуры во Дворце Гейдара Алиева в Баку. Состоялась беседа Посла Беларуси с Заместителем Премьер-министра Азербайджана Али Ахмедовым, посетившим гала-концерт с участием ансамбля «Песняры», Государственного ансамбля танца Беларуси, звезд эстрады и оперы Большого театра. Гостями концерта также были представители Парламента, МИД, дипломатического корпуса, деловых кругов. Сотрудники Посольства приняли участие в открытии Дней белорусского кино в Киноцентре Низами, а также в заседании Круглого стола представителей творческих союзов и организаций культуры Беларуси и Азербайджана в Национальной библиотеке Азербайджана. Азербайджанские печатные и электронные СМИ широко освещали Дни культуры Беларуси. Благодарные зрители овациями встречали выступления белорусских артистов, тепло приняли белорусские фильмы, с большим интересом знакомились с картинами белорусских художников, произведениями мастеров народного творчества.

# В Баку открылась выставка белорусских художников

В Азербайджанском национальном музее искусств в Баку открылась выставка «Беларусь глазами художников».
Мероприятие организованно в рамках Дней культуры Беларуси в Баку.
На выставке экспонируются 35 произведений известных белорусских художников в жанре пейзаж.
География произведений представляет разные уголки Беларуси - лесные дали, сельские просторы, городские виды.
В экспозицию вошли произведения пяти современных художников Беларуси: Антон Вырво, Анна Кононова, Глеб Отчик, Анна Садовская, Владимир Уроднич.
Также представлены произведения, посвященные 80-летию освобождения Беларуси от немецко-фашистских захватчиков.
В открытии выставки приняли участие министр культуры Азербайджана Адиль Керимли, министр культуры Беларуси Анатолий Маркевич, посол Беларуси в Азербайджане Андрей Равков и др.



Министр культуры А. Маркевич заявил, что белорусско-азербайджанское культурное сотрудничество основывается на добрых традициях и уверенно смотрит в будущее.
«Я глубоко убежден, что впереди нас ждут очень яркие, интересные, масштабные проекты, которые будут интересны нашим народам», - сказал он.
Директор Азербайджанского национального музея искусств, заслуженный работник культуры Ширин Меликова в свою очередь поприветствовала проведение Дней культуры Беларуси в нашей стране, отметив, что подобное мероприятие проводится уже в четвертый раз.
Выставка «Беларусь глазами художников» организована министерством культуры Азербайджана, Национальным музеем искусств Азербайджана, министерством культуры Беларуси, Национальным художественным музеем Беларуси, а также общественным объединением «Белорусский союз художников».

## Подписаны документы о сотрудничестве Беларуси и Азербайджана в культурной сфере



Посольство Беларуси приняло участие в заседании Круглого стола представителей творческих союзов и организаций культуры Беларуси и Азербайджана в Национальной библиотеке Азербайджана.
Подписаны документы о сотрудничестве белорусской и азербайджанской филармоний и белорусских и азербайджанских художественных музеев.

# В ближайшие месяцы начнется переселение в Шушу

В ближайшие 1-2 месяца начнется переселение семей в Шушу. Об этом сообщил специальный представитель президента Азербайджана в Шушинском районе Айдын Керимов.
А.Каримов подчеркнул, что строительство первого жилого комплекса из 23 домов в Шуше близится к завершению.

# Azərbaycan iqtisadiyyatı, ölkənin xarici iqtisadi əlaqələri dünən, bu gün, sabah



*Sual-cavabı Bakı Dövlət Universitetinin dosenti, iqtisad elmləri namizədi Mehriban Yadulla aparır.*

***Sual: Malların kabotaj daşınması dedikdə nə başa düşülür?***

**Cavab:** Bununla bağlı Gömrük Məcəlləsinin 34-cü fəslinə müraciət edəcəyik:

Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilmiş və ya bəyan edilmədən gömrük ərazisinə gətirilən malların gətirildiyi gəmi ilə deyil, başqa gəmi ilə gömrük məntəqələri arasında daşınması və boşaldılması gömrük nəzarəti altında kabotaj daşınma yolu ilə həyata keçirilə bilər. Gömrük orqanları şəxsin müraciəti nəzərə alınmaqla kabotaj daşınma proseduru altında yerləşdirilmiş malların yüklənməsi və boşaldılması üçün yerləri, eləcə də yüklənmə və boşaldılmanın həyata keçirildiyi müddəti müəyyən edirlər.

Gömrük orqanları malların eyniləşdirilməsinə və digər tələblərin yerinə yetirilməsinə əmin olduqda, onların başqa mallarla birlikdə gəminin göyərtəsində kabotaj daşınmasına icazə verirlər. Kabotaj daşınma proseduru altında yerləşdirilmiş malları daşıyan gəminin göyərtəsində bəyan edilməmiş, yaxud başqa gömrük prosedurları altında yerləşdirilmiş mallar olduqda, gömrük orqanları malların kabotaj daşınma proseduru altında yüklənməsinə və boşaldılmasına gəmi yükləmə və boşaltma yerinə gəldikdən sonra, mümkün qədər qısa müddətdə icazə verirlər. Gömrük orqanları gəminin kapitanından və ya digər əlaqədar şəxslərdən gəmi haqqında məlumatları, kabotaj daşınma proseduru altında yerləşdirilmiş malların siyahısını və malların boşaldılacağı yerin, gömrük ərazisində yerləşən limanın və ya limanların adları göstərilən sənədlərin təqdim olunmasını tələb edirlər.

# "Google" istifadəçilərin şəxsi məlumatlarının olduğu milyardlarla qeydi siləcək



***"Google" şirkətin "Chrome" brauzerindən istifadə edən 136 milyondan çox ABŞ sakini haqqında şəxsi məlumatları ehtiva edən milyardlarla qeydi silməyə razılıq verib.***

"Report" xəbər verir ki, bu barədə "Associated Press" agentliyi məlumat yayıb. "Google"a qarşı istifadəçilərin qeyri-qanuni izlənilməsi, o cümlədən "Chrome" brauzerində istifadəçilərin internet fəaliyyətinin hətta gizli rejimdə olduqda belə izlənməsi iddiası ilə kollektiv iddia qaldırılıb. Məxfiliyin pozulması iddiası ilə "Google"a qarşı qaldırılan 5 milyard dollarlıq iddia hələ 2020-ci ilin iyununda açılmışdı. Lakin şirkətin vəkilləri bir neçə dəfə prosesi təxirə salmağa çalışıblar.

Bu ilin fevralında tərəflər "Google"dan məlumat mərkəzlərində saxlanılan milyardlarla şəxsi qeydləri silməyi tələb edən rəsmi "sülh sazişi" bağlamaq niyyətlərini ifadə ediblər.

"Google"un şəxsi məlumat toplamasını məhdudlaşdırmaq üçün digər nəzarətlər tədbirləri tətbiq olunacaq", - AP yazır.

Nəşr qeyd edir ki, sazişin şərtləri aprelin 1-də açıqlanıb.

Məhkəmə sənədi iyulun 30-na təyin edilmiş məhkəmə iclasında təsdiq edilməlidir. Bu sazişə əsasən, iddiaçılar heç bir ödəniş almayacaqlar.










Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı: Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq: +99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500